**Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti sahəsində İşçi Qrupunun yaradılması haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin yerinə yetirilməsinin effektivliyini artırmaq məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının, xarici siyasət strategiyasının, hərbi doktrinanın və təhlükəsizlik sahəsində digər konseptual sənədlərin işlənib hazırlanması məqsədilə aşağıdakı tərkibdə İşçi Qrupu yaradılsın:[1]

*Azərbaycan Respublikasının xarici işlər naziri*
*Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi–şöbə müdiri*
*Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri*
*Azərbaycan Respublikası xarici işlər nazirinin müavini*
*Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Baş Qərargah rəisi*
*Azərbaycan Respublikası daxili işlər nazirinin müavini*
*Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidməti rəisinin müavini*
*Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini*
*Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini*
*Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidməti rəisinin müavini*
*Azərbaycan Respublikası ədliyyə nazirinin müavini*
*Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini*
*Azərbaycan Respublikası maliyyə nazirinin müavini*
*Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini*
*Azərbaycan Respublikası fövqəladə hallar nazirinin birinci müavini*
*Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini*
*Azərbaycan Respublikası energetika nazirinin müavini*
*Azərbaycan Respublikası səhiyyə nazirinin müavini*
*Azərbaycan Respublikası təhsil nazirinin müavini*
*Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini*
*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini*
*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti*
*"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti*
*Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Təhlükəsizlik və müdafiə məsələləri şöbəsinin müdiri*
*Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti.*

2. Azərbaycan Respublikasının xarici işlər nazirinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulmuş sənədlərin hazırlanması üçün İşçi Qrupunun tərkibinə daxil edilmiş şəxslərdən hər sahə üzrə ayrıca qrup yaratsın.

3. Bu Sərəncamın 1-ci bəndi ilə yaradılan İşçi Qrupunun fəaliyyətinin əlaqələndirilməsi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə həvalə olunsun.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi İşçi Qrupu ilə birlikdə bu Sərəncamın 1-ci bəndi ilə yaradılan İşçi Qrupunun Əsasnaməsinin layihəsini 1 ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

5. İşçi Qrupuna tapşırılsın ki, görülmüş işlər barəsində mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

6. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 sentyabr 2004-cü il
394

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**


1. 19 aprel 2005-ci il tarixli **225** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 4, maddə 300**)
2. 1 iyun 2005-ci il tarixli **835** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 6, maddə 494**)
3. 31 oktyabr 2007-ci il tarixli 2472 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 10, maddə 1009**)
4. 22 iyul 2009-cu il tarixli 412 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti 29 iyul 2009-cu il, 164, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 589**)
5. 10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**"Respublika" qəzeti, 12 fevral 2014-cü il, 30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 112**)

6. 27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644**)

7. 21 noyabr 2014-cü il tarixli **374** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1414**)

8. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** )

9. 1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**)

10. 15 fevral 2019-cu il tarixli **964** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 16 fevral 2019-cu il, 38, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 294**)

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 1 iyun 2005-ci il tarixli **835** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 6, maddə 494**) ilə İşçi Qrupunun tərkibinə **Vilayət Eyvazov** - Azərbaycan Respublikası daxili işlər nazirinin müavini və **Vilayət Zahirov** - Azərbaycan Respublikası ədliyyə nazirinin müavini daxil edilmiş, **Zahid Dünyamalıyev** və **Aydın Qasımov** həmin İşçi Qrupunun tərkibindən çıxarılmışdır.

31 oktyabr 2007-ci il tarixli **2472** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 10, maddə 1009**) ilə Bir sıra şəxslər Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti sahəsində İşçi Qrupunun tərkibinə daxil edilmişdir.

31 oktyabr 2007-ci il tarixli **2472** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 10, maddə 1009**) ilə İşçi Qrupunun tərkibinə daxil olan bir sıra şəxslərin vəzifələri yeni redaksiyada verilmişdir.

22 iyul 2009-cu il tarixli **412** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti 29 iyul 2009-cu il, 164, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 589**) ilə 1-ci bəndində "**Mikayıl Cabbarov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini**" sözləri "**Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini** " sözləri ilə, "**Sabir İlyasov - "Azərbaycan Hava Yolları" Dövlət Konserni baş direktorunun birinci müavini**" sözləri "**Sabir İlyasov - "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti**" sözləri ilə, "**Sənan Kərimov - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini** " sözləri "**Abbas Vəlibəyov - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini**" sözləri ilə əvəz edilmişdir.

10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**"Respublika" qəzeti, 12 fevral 2014-cü il, 30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 112**) ilə 1-ci hissəsində "**sənaye və energetika nazirinin müavini** " sözləri "**energetika nazirinin müavini** " sözləri ilə əvəz edilmişdir.

31 oktyabr 2007-ci il tarixli **2472** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 10, maddə 1009**) ilə Fuad İsgəndərov, Sabir Ələkbərov, Arif Mehdiyev və İdris Rzabəyov İşçi Qrupunun tərkibindən çıxarılmışlar.

27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644**) ilə 1-ci hissəsində "**iqtisadi inkişaf**" sözləri "**iqtisadiyyat və sənaye** " sözləri ilə əvəz edilmişdir.

21 noyabr 2014-cü il tarixli **374** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1414**) ilə 1-ci hissədə "**rabitə və informasiya texnologiyaları nazirinin müavini** " sözləri "**rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini**" sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** ) ilə 1-ci hissədən "**və sənaye**" sözləri çıxarılmışdır.

1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**) ilə 1-ci hissəsində "**Musa Pənahov - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini** " və "**Vamik Rəhimov - Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının Dəniz Müfəttişliyinin rəisi**" sözləri çıxarılmışdır.

1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**) ilə 1-ci hissəsində "**İltimas Məmmədov - Azərbaycan Respublikası rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini**" sözləri "**Əli Abdullayev - Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin birinci müavi** ni" sözləri ilə əvəz edilmişdir.

15 fevral 2019-cu il tarixli **964** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 16 fevral 2019-cu il, 38, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 294**) ilə 1-ci hissə ilə yaradılmış İşçi Qrupunun tərkibi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

| | |
|---|---|
| ~~Elmar **Məmmədyarov**~~ | ~~- Azərbaycan Respublikasının xarici işlər naziri~~ |
| ~~Vahid **Əliyev**~~ | ~~- Azərbaycan Respublikası Prezidentinin köməkçisi~~ |
| ~~Fuad **Ələsgərov**~~ | ~~- Azərbaycan Respublikası Prezidenti İcra Aparatının hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri~~ |
| ~~Novruz **Məmmədov**~~ | ~~- Azərbaycan Respublikası Prezidenti İcra Aparatının xarici əlaqələr şöbəsinin müdiri~~ |
| ~~Araz **Əzimov**~~ | ~~- Azərbaycan Respublikası xarici işlər nazirinin müavini~~ |
| ~~Nəcməddin **Sadıqov**~~ | ~~- Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini — Silahlı Qüvvələrin Baş Qərargah rəisi~~ |
| ~~Vilayət **Eyvazov**~~ | ~~- Azərbaycan Respublikası daxili işlər nazirinin müavini~~ |
| ~~Vilayət **Zahirov**~~ | ~~- Azərbaycan Respublikası ədliyyə nazirinin müavini~~ |
| ~~Niyazi **Səfərov**~~ | ~~- Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini~~ |
| ~~Azər **Bayramov**~~ | ~~- Azərbaycan Respublikası maliyyə nazirinin müavini~~ |
| ~~Firdovsi **Əliyev**~~ | ~~- Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini~~ |
| ~~Rəfail **Mirzəyev**~~ | ~~- Azərbaycan Respublikası fövqəladə hallar nazirinin birinci müavini~~ |
| ~~*Əli **Abdullayev***~~ | ~~*- Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini*~~ |

| | |
|---|---|
| ~~Niyazi **Hacıyev**~~ | ~~– Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidməti rəisinin müavini~~ |
| ~~Xoşbəxt **Yusifzadə**~~ | ~~– Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti~~ |
| ~~Sabir **İlyasov**~~ | ~~– "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti~~ |
| ~~Fərhad **Tağızadə**~~ | ~~– Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini~~ |
| ~~Qulu **İmanquliyev**~~ | ~~– Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının şöbə müdiri~~ |
| ~~Arif **Həşimov**~~ | ~~– Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti~~ |
| ~~Əli **Şəfiyev**~~ | ~~– Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini~~ |
| ~~Əsgər **Abdullayev**~~ | ~~– Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini~~ |
| ~~Yəhya **Musayev**~~ | ~~– Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini~~ |
| ~~Gülməmməd **Cavadov**~~ | ~~– Azərbaycan Respublikası energetika nazirinin müavini~~ |
| ~~Abbas **Vəlibəyov**~~ | ~~– Azərbaycan Respublikası səhiyyə nazirinin müavini~~ |
| ~~Firudin **Qurbanov**~~ | ~~– Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi Aparatının rəhbəri~~ |
| ~~Fərzəli **Qədirov**~~ | ~~– Azərbaycan Respublikası Təhsil Nazirliyinin şöbə müdiri~~ |